# QHT nümayəndələri, bloqçu və ictimai fəalların, şəhid analarının Şuşaya səfəri başa çatıb








**Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, bloqçu və ictimai fəalların, şəhid analarının Şuşaya üçgünlük səfəri yekunlaşıb.**




AZƏRTAC xəbər verir ki, sentyabrın 10-da daha bir heyət Şuşaya gəlib. Budəfəki heyətin üzvləri arasında eşitmə və nitq qüsurlu gənclər, qadın sahibkarlar da yer alıblar.

Səfər iştirakçıları Cıdır düzündə, Molla Pənah Vaqifin məqbərəsində, Bülbülün ev-muzeyində olub, Şuşanın mərkəzi meydanında Azərbaycan mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini, Şuşa qalasını və digər tarixi yerləri ziyarət ediblər. Həmçinin Bülbülün ev-muzeyində Prezident təqaüdçüsü, pedaqogika üzrə elmlər doktoru, professor Dilqəm Quliyevin müəllifi olduğu "Qarabağın idman tarixi" kitabının təqdimatı olub.

Heyətin üzvləri Şuşada işğalın ağır nəticələri, dağıdılmış binalar və mədəni-tarixi nümunələrlə tanış olublar. Eyni zamanda səfər iştirakçıları yol boyunca işğaldan azad olunmuş ərazilərdə, eləcə də Şuşada həyata keçirilən genişmiqyaslı tikinti işlərini izləyiblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil olunan səfərlər üç gün davam edib. Hər gün 150-dən çox QHT nümayəndəsinin, habelə bloqçu və ictimai fəalın iştirak etdiyi səfərlərə ümumilikdə 500 nəfər qoşulub.

Azərbaycan.- 2022.-11 sentyabr.- S.6.